**Bu günlərdə tarix elmləri doktoru, professor, Milli Televiziya və Radio Şurasının sədr müavini Qafar Cəbiyevin növbəti kitabı işıq üzü görüb. Etiraf edək ki, Qafar Cəbiyevin tarix, arxeologiya elmləri ilə bağlı nəşr olunan əsərlərini görməyə bir növ, artıq alışmışıq. Lakin bu səfərki nəşr müəllifin əvvəlki əsərlərindən fərqli olaraq, 45 illik yaradıcı ömründə bir gün də olsun ayrı qalmadığı publisistikası ilə bağlıdır. "Yazılan qalacaq" adlı bu kitabda son 10 il ərzində müəllifin müxtəlif media orqanlarının səhifələrində dərc olunmuş elmi-publisistik məqalələri yer alıb.**

Qeyd edək ki, Q.Cəbiyev əsasən görkəmli elm xadimi, dövlət məmuru kimi tanınsa da, onun həm də iti qələm sahibi olduğu bir çoxlarına məlumdur. O, 1974- 1981-ci illərdə "Zəhmətkeş" qəzetində şöbə müdiri, baş redaktor müavini, 1990-2003-cü illərdə "Azərbaycan" qəzetinin Balakən-Şəki bölgəsi üzrə xüsusi müxbiri kimi məsul vəzifələrdə çalışıb. Lakin Q.Cəbiyevin publisistikası yuxarıda adları qeyd olunan bir-iki qəzetin tribunası ilə kifayətlənməmiş, o, ölkədə nəşr olunan digər çoxsaylı media orqanlarında da öz sanballı məqalələri ilə çıxış etmişdir.

Məhz nəşr olunmuş son kitabında toplanmış

# "Yazılan qalacaq"

## Görkəmli alim-jurnalist Qafar Cəbiyev publisistikasının hesabatı

yazılar da bunu təsdiq edir. Həmin yazılar ölkə həyatının müxtəlif sferalarına dair müəllifin mövqeyini əks etdirir.

Qeyd etmək lazımdır ki, Q.Cəbiyev elm işçi, pedaqoq kimi elmi müəssisə çərçivəsində, məmur kimi isə yuxarı instansiyalar önündə hesabat verdiyi kimi, jurnalist-yazar olaraq da oxucuları qarşısında növbəti dəfə hesabat verməyi özünə borc bilib. Məhz "Yazlan qalacaq" kitab-toplusunu müəllifin publisistikasının "Arxeologiya və romantika" (1990), "Can Azərbaycan" (2003) kitablarından sonra növbəti on ilin hesabatı kimi qəbul etmək olar.

Kitabda müəllifin ulu öndər Heydər Əliyevin ömür yolu, onun əməli-siyasi fəaliyyəti, Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən ölkəmizdə uğurla davam etdirilməsi, müstəqillik illərində Azərbaycanın hərtərəfli və dinamik inkişafı, Xaçmaz, Quba və Qusar rayonlarının timsalında regionlarda həyata keçirilən uğurlu layihələr barədə maraqlı yazıları toplanıb. Həmçinin kitabda müəllifin ayrı-ayrı dövrlərdə müxtəlif media orqanlarında xalqın taleyüklü problemləri, xüsusilə Ermənistanın Azərbaycana təcavüzünü ifşa edən faktoloji materiallara söykənən məqalələri yer alıb. Kitabda Q.Cəbiyevin xalqımızın tarixi keçmişinə, onun öyrənilməsinə, arxeologiyasına, qədim və müasir mədəniyyətinə həsr olunmuş məqalələri, müsahibələri, bu səpkidə yazılmış ayrı-ayrı nəşrlərə resenziyaları, görkəmli elm adamları, yaradıcı şəxslər barədə fikirlərinin əks olunduğu yazıları da öz əksini tapıb.

Müəllif topluya özünün xarici səfər təəssüratlarını əks etdirən məqalələrini də daxil etməyi unutmayıb. Hansı ki, həmin təəssürat-yazılarda xeyli maraqlı nüanslar oxucunun diqqətini cəlb edə bilər.

Ümumiyyətlə, özünü ziyalı hesab edən hər bir kəs cəmiyyət həyatında baş verən hadisələr, proseslər, ölkənin qarşısında duran problemlər, əldə olunmuş nailiyyətlər barədə vaxtaşırı öz sözünü deməli, mövqeyini ortaya qoymağı bacarmalıdır. Məhz Q.Cəbiyev də nüfuzlu alim, publisist kimi bu amalla yaşamış və müxtəlif aspektlərdə, mövzularda öz ziyalı mövqeyini nümayiş etdirmişdir. Q.Cəbiyev "Yazılan qalacaq" kitabında yazmağın onun üçün mənəvi tələbat olduğunu deyir: "Yaxşı bir şey görəndə də, haradasa neqativ hallarla üzləşəndə də sakit dayana bilmirəm. Təqdim olunan kitab-topluya daxil edilən bütün yazılar məhz belə yaranıb. Həmin yazılarda sərgilənən mövqe mənim mövqeyimdir. Ölkəmizin, dövlətimizin gündən-günə, ildən-ilə daha da inkişaf edərək qüdrətlənməsi məni qəlbən sevindirir. Mən bir qələm sahibi olaraq bu uğurları həm xaricdə, həm də ölkə daxilində bacardığım qədər təbliğ etməyi özümə borc bilirəm".

Məhz bu cür prinsipial yanaşmanın nəticəsidir ki, Q.Cəbiyevin ortaya qoyulmuş olan sanballı ziyalı, publisist mövqeyi ona cəmiyyətdə peşəkar qələm sahibi kimi də böyük nüfuz qazandırıb. Bütün bunlar müəllifin son kitabında ön söz əvəzinə yazdığı oçerki "Mənim də imzam var imzalar içində" adlandırmağa mənəvi haqqının çatdığını ortaya qoyur.

Həmin yazıda müəllif haqlı olaraq deyir ki, "Qızıl qələm", "Humay" mükafatı laureatı, "Azərbaycan Respublikasının əməkdar jurnalisti", Milli Televiziya və Radio Şurasının sədr müavini, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, Müəllimlər İnstitutunun kafedra müdiri, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası nəzdində Ekspert Şurasının üzvü olaraq 65 yaşlı alim-jurnalistin ömür yoluna nəzər salarkən və bütün bunları göz önünə gətirərkən əminliklə bu sözləri deməyə mənəvi haqqı var: Bəli, mənim də imzam var imzalar içində.

Q.Cəbiyevin elmi, publisistik yaradıcılığı ilə tanış olan, xüsusilə son kitabında cəmlənmiş yazılarını oxuyan hər bir kəs bu işlərin müəllifinin həqiqətən də məhsuldar alim-publisist olduğunu təsdiq edə bilər.

Q.Cəbiyev, məlum olduğu kimi, xeyli müddətdir ki, MTRŞ-nin üzvü, sədr müavini kimi məsul dövlət vəzifəsində çalışır. Onun bir məmur olaraq ölkədə teleradio yayımı sahəsinin tənzimlənməsindəki tələbkar və məhsuldar fəaliyyəti ilə yanaşı, bu sahənin keçmişi, bu günü, gələcəyi, problemləri, uğurları və gözləntilər barədə mütəmadi olaraq müxtəlif media orqanlarında sanballı yazıları dərc olunub. Həmin yazılarda müəllif teleradio yayımı barədə dəyərli fikir və qənaətlərini ortaya qoyub. Qeyd edək ki, "Yazılan qalacaq" adlı son kitabında bu yazıların müəyyən qismi özünə yer tapıb.




Teleradio yayımı sahəsində çalışan istər yaradıcı, istərsə də tənzimləyici kadrların həmin yazılarla tanış olması onların peşəkarlığının artırılmasında tövsiyə xarakterli əyani material ola bilər.

Ümumiyyətlə, Q.Cəbiyevin "Yazılan qalacaq" kitabında toplanmış yazılar müəllifin ölkə həyatının son 20-25 ili ərzində baş verən hər bir mühüm hadisəyə, prosesə yaradıcı ziyalı münasibətini ortaya qoyur ki, bu da nəşrin geniş oxucu kütləsi üçün maraqlı olmasını şərtləndirir.

Görkəmli ziyalımızın qələminin bundan sonra da eyni kəsərdə qalacağı onu tanıyan heç bir kimsədə şübhə doğurmur. Lakin biz yenə də öz növbəmizdə hörmətli ziyalımıza iti qələm, kəsərli söz arzulayır və çoxaspektli yaradıcılıq fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər diləyirik.

**Təvəkkül Dadaşov**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**